# Gəncədə Milli Mətbuat Günü qeyd olunub

***Gəncədə şəhər icra hakimiyyətinin, Gəncə Regional Mədəniyyət İdarəsinin və Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının dəstəyi, Heydər Əliyev Mərkəzinin, Tarix-Diyarşünaslıq Muzeyinin və şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbinin təşkilatçılığı ilə Milli Mətbuat Günü ilə əlaqədar "Müstəqil Azərbaycan mətbuatı" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, Yeni Azərbaycan Partiyası Gəncə şəhər Təşkilatının sədri Ramil Orucov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov, Türkiyə Cümhuriyyətinin Gəncədəki Baş Konsulluğunun vitse konsulu Özkan Büktel, idarə, müəssisə, təşkilat rəhbərləri, medianın və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.***



Tədbirdən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunmuş, abidənin önünə tər güllər düzülmüşdür.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov tədbir iştirakçılarını salamlayaraq demişdir ki, milli mətbuat ənənələrinin qorunması və təbliğ edilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlət başçımızın qarşıya qoyduğu prioritet vəzifələrdən biridir. Şəhər rəhbəri media nümayəndələrini səmimi-qəlbdən təbrik edərək fəaliyyətlərində uğurlar arzulamışdır.

Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov çıxışında mədəniyyət sahəsinin media ilə sıx bağlı olmasından bəhs etmişdir. O, gələcək işlərində media nümayəndələrinə müvəffəqiyyətlər arzulamış, I və II Qarabağ müharibəsində şəhid olan jurnalistlərimizə Allahdan rəhmət diləmişdir.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov qeyd etmişdir ki, ulu öndər Heydər Əliyev daim mətbuat vasitələrinin rəhbərləri ilə görüşür, onların problemləri ilə maraqlanır, mətbuatın inkişafına əngəl törədə biləcək istənilən maneənin aradan qaldırılmasına nail olurdu. Təsadüfi deyil ki, Heydər Əliyev həm Azərbaycanda, həm də xaricdə dəfələrlə "mətbuatın himayədarı", "jurnalistlərin dostu" və başqa fəxri adlara layiq görülmüşdür.

Türkiyə Cümhuriyyətinin Gəncədəki Baş Konsulluğunun vitse konsulu Özkan Büktel öz çıxışında media əməkdaşlarını peşə bayramı münasibətilə təbrik etmiş və uğurlar diləmişdir.

"Gəncənin səsi" qəzetinin baş redaktoru Rəfiqə Sadıqova, "Novosti Gyandji" qəzetinin baş redaktoru İrina Kalaşnikova, AzTV-nin bölgə müxbiri Xaliq Qurbanlı, Kəpəz Müstəqil Teleradio Şirkətinin xəbərlər departamentinin xüsusi müxbiri Elnur Rzayev və jurnalist Sənubər Qocayeva öz çıxışlarında qeyd etmişlər ki, ulu öndərin mətbuata və mətbuat nümayəndələrinə göstərdiyi diqqət və qayğı ümummilli liderin layiqli varisi Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub. Təsadüfi deyil ki, hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib.

Çıxışlarda qeyd olunub ki, Azərbaycan mediası həm Birinci, həm də İkinci Qarabağ müharibələrində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib. Bu günə qədər fasiləsiz davam edən informasiya müharibəsində mətbuat işçiləri öz peşəkarlığı və vətənpərvərliyi ilə daim fərqlənirlər.

Tədbirdə 4 nömrəli Uşaq Musiqi Məktəbinin fortepiano şöbəsinin müəllimi Gülcan Qasımovanın, müəllim Aişə Cəfərovanın və Gəncə Dövlət Filarmoniyasının solisti Rüstəm Cəfərovun ifasında musiqi nömrələri səslənmişdir.

Sonda təltifetmə mərasimi keçirilmişdir.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

Xalq qəzeti .- 2022.- 22 iyul.- S.11.